*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 may 2015-ci il № 35 (1951) Qiyməti 25 qəpik

# Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası istifadəyə verilib

***Mayın 7-də Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışı olub.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni inzibati binanın açılışında iştirak ediblər.

Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi münasibətilə veteranları təbrik etdilər, ən xoş arzularını bildirdilər və onların ürək sözlərini dinlədilər.

Veteranlar ulu öndər Heydər Əliyev ilə görüşlərini dərin ehtiram hissi ilə xatırladılar.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası ilə tanış oldular.

Bina dövlətimizin başçısının müvafiq sərəncamı əsasında yaradılıb. Girişdə ulu öndərin büstü qoyulub. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev bildirdi ki, inzibati binadakı muzeydə elektron məlumat mərkəzi vasitəsilə ümummilli liderin veteranlarla görüşləri, Azərbaycan İkinci Dünya müharibəsi illərində, Azərbaycan Böyük Vətən müharibəsindən sonra, Prezident İlham Əliyevin veteranlarla görüşləri, Azərbaycan Qarabağ savaşında, ölkəmizin dünəni və bu günü mövzularında sənədlər, foto və videoarxivlə tanış olmaq mümkündür. Heydər Əliyev guşəsində müxtəlif fotolar və eksponatlar yer alıb. Burada veteranların və qonaqların müxtəlif kitabları mütaliəsi üçün də müvafiq şərait var. Prezident İlham Əliyevin veteranlarla görüşləri, veteranlara dövlət qayğısından bəhs edən guşədə də zəngin eksponatlara yer ayrılıb.

Dövlətimizin başçısına məlumat verildi ki, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasında səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb. Qeyd olundu ki, müşavirə otağında da informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi maksimum diqqətdə saxlanıb. Müasirliyi ilə diqqəti çəkən akt zalında da müxtəlif tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait var. Binanın təchizatı ən yüksək standartlara cavab verir. Veteranlar burada gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün silsilə tədbirlər keçirə biləcəklər. İnzibati binanın dəhlizində Azərbaycanın Milli Qəhrəmanları və Sovet İttifaqı Qəhrəmanlarının şəkillərindən ibarət fotoguşələr yaradılıb. Ümumilikdə, yeni inzibati bina səmərəli fəaliyyət üçün hər cür şəraitə malikdir.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranlar ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi:

- Əziz veteranlar!

İlk növbədə, sizi qarşıdan gələn 9 May - Qələbə Günü münasibətilə ürəkdən təbrik etmək, sizə cansağlığı arzulamaq istəyirəm.

Mən mayın 9-da Moskvada keçiriləcək bayram tədbirlərində iştirak edəcəyəm. Ona görə bizim ənənəvi görüşümüzü bu gün - mayın 7-də keçiririk. Hər il biz sizinlə görüşürük və bu görüşlərin çox böyük mənası var.

Eyni zamanda, bu gün veteranların həyatında əlamətdar gündür. Çünki veteranlar üçün yeni gözəl inzibati bina istifadəyə verilir. Keçən il veteranlar təşkilatının nümayəndələri mənə müraciət etmişdilər. Dərhal qərar qəbul edildi və gözəl iş yeri tikildi.

Ən yüksək standartlara cavab verən bu mərkəzdə veteranlar çalışacaqlar. Burada bütün şərait yaradılıb və biz bunu qısa müddət ərzində etmişik. Yəni, bu, bir daha onu sübut edir ki, Azərbaycan dövləti öz veteranlarına böyük qayğı və diqqət göstərir. Veteranlar yüksək mükafatlarla təltif olunur, onlara minik maşınları verilir. Növbədə duran bütün veteranlara avtomobillərin verilməsi prosesi bu il başa çatacaq. Mənzillər, pul mükafatı verilir. Onu da qeyd etməliyəm ki, MDB məkanında ən yüksək pul mükafatı məhz Azərbaycanda verilir. Siz buna layiqsiniz. Siz Vətəni müdafiə etmisiniz, qəhrəmanlıq göstərmisiniz və Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Ulu öndər Heydər Əliyevin siyasəti də məhz ondan ibarət idi ki, biz müharibə veteranlarına daim diqqət göstərək.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində o vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü Qələbə Gününü bayram günləri siyahısından çıxarmışdı. Yəni, bu bayram ləğv edilmişdi. Onlar elə bil ki, sizin qəhrəmanlığınızı tarixdən silmək istəyirdilər. Ancaq onların özləri tarixdən və siyasi səhnədən silindi, Azərbaycan xalqı o antimilli hakimiyyətə dözə bilmədi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra tarixi ədalət bərpa edildi, 9 May - Qələbə Günü rəsmi bayram kimi təsdiq olundu və o gündən bu günə qədər biz bu bayramı qeyd edirik. Bu, bizim dövlət bayramımızdır, əziz bayramımızdır.



Azərbaycan faşizm üzərində Qələbənin əldə edilməsinə çox böyük töhfələr verib. Azərbaycandan 700 minə yaxın insan müharibədə iştirak edib, onlardan 300 mini həlak olub. 123 nəfər ən yüksək ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunub. Bu, Azərbaycan xalqının qəhrəmanlığını təsdiq edən statistik göstəricilərdir.

Eyni zamanda, Azərbaycan alman faşizmi üzərində Qələbənin əldə edilməsində həlledici rol oynayıb. Mən bunu tam məsuliyyətlə deyirəm. Çünki Azərbaycan nefti, Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam fərqli ola bilərdi. O vaxt - müharibə illəri zamanı Sovet İttifaqında 110 milyon ton neft hasil edilmişdi. Ondan 75 milyon tonu Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdi. Təsadüfi deyil ki, alman faşizmi Bakını zəbt etmək üçün çox böyük səylər göstərmişdi. Çünki əgər Bakını zəbt etsəydilər, o zaman bütün Sovet İttifaqının əksər enerji resurslarına sahib çıxmış olacaqdılar və beləliklə, yanacaq qıtlığı ucbatından müharibənin nəticələri tam başqa ola bilərdi.

Bakını Sovet ordusu müdafiə etdi və bu, xalqımızı böyük bəlalardan xilas etdi. Azərbaycanın 300 min nümayəndəsi qəhrəmancasına həlak oldu. Ancaq əgər Hitlerin ordusu Bakını zəbt etsə idi, xalqımıza qarşı soyqırımı törədilərdi. Çünki faşizm ideologiyası irqçilik, ayrı-seçkilik, ksenofobiya, başqa millətlərə qarşı nifrət üzərində qurulmuşdu. Bakının qəhrəmanlığı bu gün dünya üçün də artıq sirr deyil və biz çalışmalıyıq ki, Azərbaycan xalqının, Azərbaycan zəhmətkeşlərinin qəhrəmanlığını bütün dünyaya nümayiş etdirək. Bu yaxınlarda çəkilən və nümayiş etdirilən sənədli film də Azərbaycanın ümumi Qələbəmizə nə qədər böyük töhfə verdiyini əyani şəkildə göstərir. Azərbaycan neftçiləri ilə bərabər Azərbaycan zəhmətkeşləri də böyük fədakarlıq göstərmişlər. Müharibə zamanı Azərbaycanın sənaye müəssisələrində 130 növ silah-sursat istehsal olunurdu ki, bu da Qələbəmizin əldə edilməsində mühüm rol oynamışdı.

Biz bütün bu tarixi faktları bilirik. Bizim gənc nəslimiz də, dünya da bilməlidir. Biz Azərbaycanın faşizm üzərində Qələbənin əldə edilməsindəki müstəsna rolu haqqında danışırıq, danışacağıq və bundan sonra da bu tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdıracağıq.

Əfsuslar olsun ki, bu gün faşizm ideologiyası bəzi yerlərdə yenə də baş qaldırır. Biz buna imkan verə bilmərik, biganə qala bilmərik. Müharibə haqqında həqiqətlər təhrif olunur. Sanki kimsə tarixi yenidən yalan, siyasi sifariş üzərində yazmaq istəyir. Sovet ordusunun Qələbənin əldə edilməsində həlledici rolunu bəzi qüvvələr danmaq istəyirlər. Bu, dözülməzdir, qəbuledilməzdir. Ona görə hamımız - veteranlar, siyasətçilər, ictimaiyyət, dünya ictimaiyyəti bu məsələ ilə bağlı öz sözünü deməlidir və biz bu sözü deyirik.

Tarixi təhrif etməklə yanaşı, faşistlərin qəhrəmanlaşdırılması prosesi də gedir. Biz buna da dözə bilmərik. Çünki faşizm ideologiyası Yer kürəsində ən çirkin, təhlükəli, dəhşətli ideologiyadır. Bu gün müxtəlif ölkələrdə neofaşizm meyillərinin güclənməsi bizi haqlı olaraq narahat edir. Bizə elə gəlirdi ki, faşizm ideologiyası ilə artıq məsələ bağlandı. Bundan sonra bu, heç vaxt baş qaldırmayacaq. Ancaq əfsuslar olsun ki, biz görürük, yürüşlər, müxtəlif tədbirlər keçirilir. İndi həmin ideologiya başqa adlarla pərdələnərək dirçəlməyə başlayır.

Avropada antimiqrant hərəkatı da məhz faşizm, irqçilik, ayrı-seçkilik ideologiyası üzərində qurulur. Hesab edirəm ki, dünya siyasətçiləri öz sözünü deməlidirlər. Biz neofaşizmin nə qədər böyük fəlakət olduğu haqqında öz sözümüzü deyirik və deyəcəyik.

Ona görə mən çox şadam ki, siz veteranlar həmişə olduğu kimi, öz fəal mövqeyinizlə seçilirsiniz və sizin sözünüzün çox böyük mənası var. Siz müharibənin, o tarixin canlı şahidlərisiniz, onun iştirakçılarısınız.

Əfsuslar olsun ki, Azərbaycan xalqı da XX əsrin sonlarında faşizm ideologiyasının nəticəsi olan Qarabağ fəlakəti, işğalı ilə üzləşmişdi. Biz XX əsrin sonlarında erməni faşizmi ilə üzləşdik. Bizə qarşı aparılan işğalçı siyasət, xalqımıza qarşı törədilən Xocalı soyqırımı məhz erməni faşizminin təzahürüdür. Bu gün dünyada erməni faşizmi haqqında kifayət qədər sənədlər, kitablar, məqalələr dərc edilir. Erməni faşizmini ifşa etmək üçün əsas yükü biz öz üzərimizə götürmüşük. Günahsız insanlar, qadınlar, uşaqlar ona görə öldürülürdü ki, onlar azərbaycanlıdır.

Biz erməni faşizminə qarşı mübarizə aparırıq və qurbanlarımızın qanını yerdə qoymuruq. Biz lazımi tədbirləri görürük və görəcəyik ki, faşistləri layiqincə cəzalandıraq. Azərbaycan Ordusu indi bütün lazımi tədbirləri görür. Eyni zamanda, Ermənistanda Hitlerə qulluq edən faşistlərin xatirəsinə hörmət göstərilir, onların adları küçələrə, meydanlara, parklara verilir. Siz veteranlar bir neçə ölkənin dövlət başçısına məktubla müraciət etmisiniz, erməni faşizmi haqqında yazmısınız, Ermənistanda faşistlərin qəhrəmanlaşdırılması haqqında yazmısınız. Mən bunu alqışlayıram. Bunu hər kəs bilməlidir. Bu, dözülməzdir.

Ona görə Azərbaycanın həm İkinci Dünya müharibəsindəki rolu, həm bu gün bizim mövqeyimiz haqqında dünya bilir və bilməlidir. Bəzi ölkələr indi tarixi həqiqətləri danmaq istəyirlər. Bir daha demək istəyirəm ki, tarixi təhrif etmək, faşizmi kommunizmlə bərabərləşdirmək istəyirlər. Bu, dözülməzdir.

Bu gün biz, əlbəttə ki, azad cəmiyyətdə yaşayırıq. Bazar iqtisadiyyatı, siyasi plüralizm, demokratiya, çoxpartiyalı sistem - bunlar Sovet dövründə mümkün deyildi. Ancaq, eyni zamanda, Sovet İttifaqını faşist Almaniyası ilə müqayisə etmək həm ədalətsizlikdir, həm də böyük cinayətdir.

Biz öz tarixi keçmişimizə hörmətlə yanaşırıq. Keçmişdə yaxşı hallar da, acınacaqlı məqamlar da olub. Azərbaycan xalqı da bir çox hallarda ədalətsizliklə üzləşib. Ancaq biz tarixi heç vaxt saxtalaşdırmamalıyıq.

Bu gün yeni tarix yazılır. Müstəqil Azərbaycan öz tarixini yazır. Bu tarix şərəfli tarixdir. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Azərbaycan böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir. Azərbaycanın iqtisadi inkişafı bu gün nümunə ola bilər. Böhranlı illərdə biz öz prinsipial siyasətimizdən kənara çıxmırıq. Biz xalqın rifah halını yaxşılaşdırmaq üçün əlimizdən gələni edirik. Bu gün Azərbaycanın dünyadakı rolu kifayət qədər böyükdür, mövqelər möhkəmdir, daxildə sabitlik, xalqla iqtidar arasında vəhdət var. Azərbaycan çoxmillətli ölkə kimi dinlərarası, mədəniyyətlərarası münasibətlərin tənzimlənməsi işində nümunədir. Bu gün müstəqilliyimizin tarixini biz - siz veteranlar, gənc nəsil yazırıq. Bu gün biz azadıq, müstəqilik və bu bizim ən böyük sərvətimizdir. Müstəqil Azərbaycan dövləti öz veteranlarına çox böyük hörmətlə yanaşır. Bu, dövlət siyasətidir, ədalətli siyasətdir.

Mən Sizi qarşıdan gələn gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə bir daha cansağlığı, yeni uğurlar arzulamaq istəyirəm. Sağ olun.



**(Ardı 2-ci səhifədə)**

# Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası istifadəyə verilib

(Əvvəli 1-ci səhifədə)

Böyük Vətən müharibəsi veteranı Fatma Səttarova çıxış etdi. Dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya onlara hərtərəfli qayğıya, eləcə də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının ən müasir standartlara cavab verən yeni inzibati binasına görə veteranlar adından dərin təşəkkürünü bildirərək dedi:

- Əziz Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, xanımlar xanımı Mehriban Əliyeva.

Mən veteranlar adından və şəxsən öz adımdan Sizə böyük təşəkkürümü bildirirəm. Siz bu şad günümüzdə bizi çox sevindirdiniz. Biz Qələbənin 70 illiyini qeyd edirik. Bu, müharibə iştirakçıları üçün böyük bayramdır. Bizi sevindirən ikinci məsələ odur ki, Siz bu gün bizə bu gözəl binanı bəxş edirsiniz. Sizə "Çox sağ olun" deyirik.

Allah Heydər Əliyevə rəhmət etsin. O, zəmanəmizin peyğəmbəri idi. Mən ancaq bunu deyə bilərəm. O, özündən sonra Sizin kimi bir oğul, xalqını, torpağını, millətini sevən bir şəxsi qoyub getdi. Allah ulu öndərimizə qəni-qəni rəhmət eləsin. Sizə böyük təşəkkürümüzü bildiririk.

Mehriban xanım, Siz həm bizim Prezidentin həyat yoldaşı, həm də onun balalarının anasısınız. Mən Sizin bütün fəaliyyətinizi televizordan izləyirəm. Mən burada olan və olmayan veteranlar adından Sizə təşəkkürümü bildirirəm. Çox sağ olun.

* * *

Sonra çıxış edənlər ölkədə veteranlar üçün görülən işləri yüksək qiymətləndirdilər, yeni inzibati binanın veteranlara göstərilən dövlət qayğısının təzahürü olduğunu dedilər.

Professor, Prezident təqaüdçüsü və əməkdar incəsənət xadimi Musa Bağırov ulu öndər Heydər Əliyevin veteranlara qayğısından danışdı, bu siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini bildirdi.

* * *

Sonra hazırda SOCAR-ın "Ekol Mühəndislik Xidmətləri"ndə baş direktorun müşaviri vəzifəsində çalışan Kamil Hakimov çıxış edərək dedi:

- Möhtərəm Prezident, hörmətli Mehriban xanım.

Mən 1943-1947-ci illərdə Neft Texnikumunda oxuya-oxuya neft emalı zavodunda işləmişəm və neftçilərin fədakarlığının şahidi olmuşam. Möhtərəm Prezident, Siz bizim neftçilərin gördüyü işlərə çox düzgün qiymət verdiniz. Siz haqlı olaraq dediniz ki, Qələbənin qazanılmasına Bakı neftçiləri mühüm töhfələr veriblər. O vaxt Sovet İttifaqında hasil olunan neftin 70-80 faizini Bakı neftçiləri təmin edirdi. Mən öz əllərimlə ordu üçün neft məhsulları, sürtkü yağları hazırlamışam. Müharibədən sonra biz çörəkbişirmə müəssisələri üçün yağ istehsal edirdik. Bunu da Azərbaycan alimləri ixtira etmişdilər.



Möhtərəm Prezident, mən ömrüm boyu neft emalı sənayesində çalışmışam. 1970-1980-ci illərdə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında nazir işləmişəm, neft emalı sənayesinə rəhbərlik etmişəm. Sonra məni Fidel Kastronun xahişinə və Moskvanın göstərişinə əsasən Kubaya göndərib. Dörd il Kubada Fidel Kastronun aparatında nazirin müşaviri işləmiş və eyni zamanda, bütün zavodlarda çalışan Sovet mühəndislərinə rəhbərlik etmişəm. 1982-ci ilin aprelində ulu öndərimiz Meksikadan qayıdarkən Havanada məni aeroporta dəvət etdirdi. Soruşdu ki, bilirsən, niyə dəvət etmişəm? Cavab verdim ki, bilmirəm. Ancaq iki ildir ki, respublikadan, Sizdən ayrılmışam. Çox darıxırdım. Bu görüşə görə Sizə minnətdaram. Sonra işimlə, vəziyyətimlə maraqlandı.

Möhtərəm Prezident, bunları söyləməklə demək istəyirəm ki, ulu öndərin diqqət və qayğısını həmişə hiss etmişəm. O böyük insanın xatirəsi mənim qəlbimdə həmişə yaşayıb və yaşayacaq. Mən fəxr edirəm ki, o böyük insanın rəhbərliyi altında 10 il nazir işləmişəm.

Bir peşəkar neft emalı işçisi kimi Sizə də minnətdaram ki, ulu öndərin neft strategiyasını uğurla davam etdirirsiniz. İndi böyük neft emalı zavodları tikilir. Bütün bunlar çox qürurvericidir.

Mən Sizin bayramınızı təbrik edirəm, Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı diləyirəm. Sağ olun.

* * *

Daha sonra Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, icazə verin, Sizi və Mehriban xanımı Qələbənin 70 illiyi münasibətilə ürəkdən təbrik edim, Sizə cansağlığı, uzun ömür arzulayım.

Cənab Prezident, 1994-cü il iyunun 28-də ulu öndər tərəfindən veteranların hüquqları bərpa olunmuşdur və o dövrdən başlayaraq veteranlara böyük diqqət və qayğı göstərilir. Siz o qayğını bu gün davam etdirirsiniz. Veteranlar təşkilatı üçün yeni inzibati binanın istifadəyə verilməsi bunun bariz nümunəsidir. Buna görə Sizə çox minnətdarıq.

Cənab Prezident, Sizin işiniz göz qabağındadır. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Siz Azərbaycanı bütün dünyaya tanıtmısınız.

Dadaş Rzayev müharibə veteranlarına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.

General-mayor Dadaş Rzayev veteranlara göstərilən müstəsna diqqət və qayğıya görə "Veteran Həmrəyliyi" medalını və vəsiqəsini dövlətimizin başçısına təqdim etdi.

Dadaş Rzayev respublikamızda veteran hərəkatının gücləndirilməsinə və veteranlara göstərdiyi yüksək diqqət və qayğıya görə birinci xanım Mehriban Əliyevaya Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti adından "Veteranların qayğıkeşi" diplomunu təqdim etdi.

Sonra dövlətimizin başçısına yenicə nəşr olunan "Azərbaycanlılar Böyük Vətən müharibəsində" kitabı, "İgid oğullarla bir cərgədə" ensiklopedik toplusu və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova həsr olunmuş "Sərkərdənin taleyi" kitabı, həmçinin yeni çap olunmağa başlayan "Azərbaycan veteranı" qəzetinin Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə həsr edilmiş nömrəsi hədiyyə olundu.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının bayrağı da Azərbaycan Respublikası Prezidentinə təqdim edildi.

Görüşün sonunda Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranları bir daha təbrik etdilər və ən xoş arzularını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Azərbaycan Respublikasının Müdafiə naziri "İDEF - 2015" sərgisi çərçivəsində bir sıra görüşlər keçirib

## Azərbaycan-Türkiyə bölmələrinin birgə təlimləri müzakirə edilib



***6 may 2015-ci il.***

İstanbul şəhərində keçirilən "İDEF - 2015" beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov müxtəlif ölkələrin və müdafiə sənayesi şirkətlərinin silah, texnika və hərbi avadanlıq istehsalı sahəsində əldə etdikləri nailiyyətlərlə tanış olub.

Müdafiə naziri sərgidə nümayiş etdirilən Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müxtəlif təyinatlı məmulatları maraqla izləyib.

Sərginin keçirildiyi günlərdə Müdafiə nazirinin Türkiyə Milli Müdafiə naziri İsmət Yılmaz, Türkiyə Respublikası Baş Qərargahının rəisi ordu generalı Necdet Özel, Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları Komandanı ordu generalı Hülusi Akar və başqaları ilə təkbətək görüşləri olub.

Görüşlərdə ölkələrimiz arasında müdafiə sahəsində mövcud vəziyyət, hərbi, hərbi-texniki və hərbi təhsil istiqamətlərində ikitərəfli əməkdaşlığın müxtəlif aspektləri, xüsusilə mayın 12-dən 16-dək Azərbaycanda keçiriləcək Azərbaycan-Türkiyə Quru Qoşunları bölmələrinin növbəti birgə taktiki təliminin icrası ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



## Qələbənin 70-ci ildönümü münasibətilə Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Hörmətli Böyük Vətən müharibəsi veteranlari!

Sizi 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 70-ci ildönümü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səmimi salamlarımı çatdırıram.

Siz Qafqaz dağlarının ətəklərindən Berlinədək şanlı döyüş yolu keçmiş, qələbə naminə şəxsi rəşadət və şücaət nümunələri göstərmisiniz. İndi sizin sinənizi ölkənin ən yüksək orden və medalları bəzəyir. Harada, hansı cəbhədə vuruşmağınızdan asılı olmayaraq azərbaycanlı olduğunuzu heç vaxt unutmamış, xalqımıza həmişə başucalığı gətirmisiniz.

Qələbənin 70 illiyi ərəfəsində mən bir daha ömrü yarıyolda qırılan, müharibədə həlak olan silahdaşlarınızı hörmət və ehtiramla yad edir, onların müqəddəs ruhları qarşısında baş əyirəm.

Əziz veteranlarımız, Siz Böyük Vətən müharibəsi veteranlarının sonuncu mogikanlarısınız və yaşınızın 90-ı çoxdan haqlamasına baxmayaraq, ixtiyar çağınızda da gənclərin vətənpərvərlik tərbiyəsində səylərinizi əsirgəmirsiniz.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Sizin xidmətlərinizi həmişə yüksək qiymətləndirmiş, Sizi xalqımızın qızıl fondu adlandırmışdır.

Siz daim ölkə rəhbərliyinin, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmusunuz.

Arzu edirəm ki, bundan sonrakı ömür payınızı da nəvə-nəticələrinizlə birlikdə şad-firavan yaşayasınız. Qələbə gününü gördüyünüz kimi, nəvə-nəticələrinizin Qarabağdan qələbə müjdəsi gətirəcəyi günü görmək də Sizlərə qismət olsun!

**General-polkovnik Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**

# Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş hazırlığı yoxlanılıb







***I Avropa Oyunları ərəfəsində ölkənin hava məkanının etibarlı qorunması məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, mayın 7-də Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qüvvə və vasitələrinin döyüş hazırlığı yoxlanılıb.***

Təlim-döyüş tapşırığının yerinə yetirilməsi poliqonda "Osa" AK(M) tipli zenit-raket komplekslərinin istifadəsi ilə həyata keçirilib.

Tapşırığın yerinə yetirilməsi zamanı hava məkanını pozan şərti düşmən aşkarlanaraq izlənməyə götürülüb və kiçik həcmli, aşağı yüksəklikdə, qrup halında uçan hədəflər raket zərbələri ilə dərhal məhv edilib.

Qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**




## Ümummilli lider Heydər ƏLİYEV:

# "Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır"

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi münasibətilə ölkəmizdə silsilə tədbirlər keçirilir. Bu da təbiidir, ona görə ki, tarixi Qələbənin qazanılmasında Azərbaycan xalqı böyük pay sahibi olub.***

## Azərbaycan təyyarəçilərinin böyük qələbədə rolu

Böyük Vətən müharibəsi illərində Azərbaycan təyyarəçiləri də "Hər şey cəbhə üçün, hər şey Qələbə naminə" şüarı altında gecə-gündüz çalışıblar. Şahinlərimiz 79 min saat havada uçuş keçirmiş, 500 min kilometr məsafə qət etmiş, 5 min ton yük və 49 min nəfər sərnişin daşımışlar. Bakı təyyarə meydanının müttəfiq dövlətlərlə hava rabitəsində də xüsusi rolu olmuşdur. Təkcə 1944-cü ildə Bakı hava donanması xaricə 1145 nəfər sərnişin daşımışdır. Azərbaycan Mülki Hava Donanması təyyarəçilərinin Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilib. 152 nəfər orden və medallara layiq görülüb, 210 nəfər isə "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif edilib.

Bu günlərdə Milli Aviasiya Akademiyasının Mülki Aviasiya Muzeyində faşizm üzərində Qələbənin 70 illiyinə həsr olunmuş "Azərbaycanın təyyarəçiləri Böyük Vətən müharibəsində" mövzusunda təntənəli tədbir keçirilib. Tədbirdə müharibə illərində qəhrəmanlıqla vuruşmuş təyyarəçilərimizdən polkovnik Rizvan Zeynalov, aviasiya kapitanı Züleyxa Seyidməmmədova, təyyarəçi-təlimatçı Leyla Məmmədbəyovanın ailə üzvləri, kinorejissor Nazim Rza İsrafiloğlu, akademiyanın professor-müəllim, tələbə heyəti və digər qonaqlar iştirak ediblər.



Tədbiri muzeyin direktoru, əməkdar mədəniyyət işçisi Firəngiz Hüseynova giriş sözü ilə açaraq faşizm üzərində qələbədə xalqımızın misilsiz xidmətlərindən, şərəfli döyüş yolu keçmiş fədakar aviatorlarımızdan danışıb. O bildirib ki, müharibə illərində Azərbaycan əsasən cəbhəni neft və neft məhsulları ilə təmin edib. Cəbhədə yüksəkoktanlı aviasiya benzininə tələbatın artmasıyla əlaqədar, görkəmli azərbaycanlı alim Yusif Məmmədəliyevin rəhbərliyi ilə həmin növ yanacağın hazırlanmasının yeni üsulu kəşf edilmişdir. Bu üsul aviasiya benzininin istehsalını artırmış, müharibə illərində Bakı zavodları cəbhəyə göndərilən aviasiya yanacağının 75 faizini təmin etmişdir.

Məlumatlardan o da aydın oldu ki, müharibə dövründə Azərbaycanda iki aviazavod fəaliyyət göstərib. Fasiləsiz işləyən bu sənaye müəssisələrində "UTİ-4" və "YAK-3" tipli qırıcı təyyarələr, habelə hidrotəyyarələr üçün xizəklər istehsal edilib. Əfsanəvi "Katyuşa"nın raket-mərmiləri də Bakıda hazırlanıb.

Gəncə aviatəmir zavodunda 782 müxtəlif tipli təyyarələr, 1550-dən çox təyyarə mühərriki və digər aviahissələr vaxtında təmir olunaraq, cəbhəyə göndərilib.

Aviasiya kapitanı qırıcı-təyyarəçi Züleyxa Seyidməmmədovanın oğlu Aydın Seyidməmmədov tədbirdə çıxış edərək anasının keçdiyi rəşadətli ömür yolundan qürur duyduğunu söyləyib: "Züleyxa xanım 586-cı qırıcı qadın aviapolkunun komandir müavini kimi 500-ə qədər döyüş uçuşunun iştirakçısı olub. Onun döyüş xidmətləri 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni və "Almaniya üzərində qələbəyə görə" medalı ilə qiymətləndirilib".

İlk qadın təyyarəçilərimizdən, Bakı aeroklubunun yetirməsi olan Leyla Məmmədbəyovanın oğlu Xanlar Məmmədbəyov isə müharibə başlananda anasının təyyarəçi-təlimatçı vəzifəsində çalışmasından, könüllü cəbhəyə getməsindən söhbət açıb.



Aviasiya qvardiya polkovniki, qırıcı-təyyarəçi Rizvan Zeynalovun qızı Sveta Fərzəliyeva da atası ilə bağlı xatirələrindən danışıb.

Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevin tədbir iştirakçılarına və qonaqlara təbrikini çatdıran tədris işləri üzrə prorektor Ədalət Səmədov çıxışını ümummilli liderimiz Heydər Əliyevin fikirləri ilə bitirib: "Tarix bu gün və gələcəkdə bilməlidir ki, Azərbaycan Respublikasının Böyük Vətən müharibəsindəki xidməti, rolu, fəaliyyəti böyük olmuşdur. Bir daha təkrar edirəm, bizim insanların cəbhədəki mərdliyi, eyni zamanda Azərbaycan xalqının cəbhəyə vacib olan hər bir məhsul istehsalında iştirakı, həmçinin neftçıxarma sahəsindəki xidmətləri qiymətsizdir və tarixi əhəmiyyət kəsb edir".

Kinorejissor Nazim Rza İsrafiloğlu "Böyük Vətən müharibəsi Azərbaycan kinosunda" mövzusunda çıxış edərək faşizmlə ölüm-dirim mübarizəsinə qalxan qəhrəman həmyerlilərimizdən fəxrlə danışıb, onların hər birinin gənc nəslə nümunə olduğunu qeyd edib.

Akademiyanın müəllimi xalq şairi Nəriman Həsənzadənin müharibə ədəbiyyatından gətirdiyi nümunələr tədbir iştirakçılarında xoş ovqat yaradıb.

Sonra tədbir iştirakçıları "Böyük Vətən müharibəsi Azərbaycan rəssamlarının gözü ilə" adlı sərgiylə tanış olub, döyüşçü təyyarəçilərimizlə bağlı videoçarxa tamaşa ediblər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Veteranlarla görüş



Azərbaycan xalqı keçmiş Sovetlər Birliyinin tərkibində Hitler Almaniyasına qarşı ölüm-dirim mübarizəsinə qalxıb və tarixi Qələbənin qazanılmasında böyük rol oynayıb. Ona görə bu Zəfər ölkəmiz üçün də dəyərli və əlamətdardır, hər il Bakıda, bütün bölgələrimizdə hörmət və ehtiramla xatırlanır. Faşizmin tarix səhnəsindən silinməsində zəhməti olmuş müharibə veteranları ilə görüşlər keçirilir.

Mayın 6-da Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin və Silahlı Qüvvələrin Baş Klinik Hospitalı rəhbərliyinin birgə təşkilatçılığı ilə hərbi tibb ocağında faşizm üzərində Qələbənin 70 illik yubileyinə həsr edilmiş təntənəli mərasim keçirildi.

Mərasimi giriş sözü ilə zabit Kamil Seyidəliyev açdı və İkinci Dünya müharibəsində qazanılmış tarixi Qələbənin əhəmiyyətindən danışdı. O, çıxış üçün sözü Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin sədri Abiyət xanım Ağadadaşovaya verdi.

Tarixi Qələbəni bizə bəxş etmiş veteranları salamlayan Abiyət xanım ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğıdan söz açdı, hər il dövlət tərəfindən onlara yardım edildiyini söylədi. O, Silahlı Qüvvələr sistemində xidmət göstərmiş müharibə və arxa cəbhə veteranlarının da heç vaxt unudulmadığını bildirdi və tədbirdə iştirak edən qonaqları Qələbə Günü münasibətilə təbrik etdi.

- Təəssüflər olsun ki, zaman keçdikcə böyük Qələbəni bizə bəxş edənlərin sıraları seyrəlir, - Abiyət xanım çıxışında bildirdi. - Bu insanların bəziləri yaşla əlaqədar və səhhətlərinə görə keçirdiyimiz tədbirlərə qatıla bilmirlər. Antonina Avdeyeva və Aleksandr Qritçenko belə veteranlarımızdandır. Buna baxmayaraq biz onların hər birini axtarmışıq və bayram münasibətilə onları təbrik etmişik, yardım göstərmişik.

Abiyət xanım onu da vurğulamağı özünə borc bildi ki, Azərbaycan xalqı XX əsrin sonlarında Ermənistanın təcavüzü ilə üz-üzə qaldı. Havadarlarına arxalanan ermənilər torpaqlarımızın 20 faizini işğal etdilər. Azərbaycan Silahlı Qüvvələri bu gün regionun ən güclü ordusuna çevrilib və Qarabağımızı işğaldan azad etməyə qadirdir. Gün o gün olsun ki, biz belə bir Qələbəni Xankəndidə, Şuşada qeyd edək.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının tibb hissəsi rəisi, tibb xidməti polkovniki Elşad Quliyev də müharibə veteranlarını salamladı və onları faşizm üzərində Qələbənin 70 illiyi münasibətilə təbrik etdi. Bu Qələbənin hər bir Azərbaycan vətəndaşı üçün böyük dəyərə malik olduğunu vurğulayan polkovnik Quliyev Azərbaycanın Qələbə üçün verdiyi töhfələrdən söz açdı və veteranları



hospital rəhbərliyi adından təbrik etdi.

İkinci Dünya müharibəsi veteranları, Yasamal rayonu rus icması sədrinin müavini Aleksandr Antropov, istefada olan polkovnik Leonid Pervitski, Baş Klinik Hospitalın işçisi Rafiq Məmmədov və başqaları çıxış edərək müharibənin doğurduğu fəlakətlərdən danışdılar, Azərbaycan xalqının həm ön, həm arxa cəbhədə ümumi qələbə naminə göstərdiyi xidmətlərdən, Qarabağ müharibəsinin Azərbaycan xalqına gətirdiyi bəlalardan söhbət açdılar.

Tədbirin yekununda faşizm üzərində Qələbənin 70 illik yubileyi münasibətilə müharibə veteranlarına fəxri fərman, təzə-tər çiçəklər təqdim edildi, həm Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqları Komitəsi, həm də Baş Klinik Hospitalın rəhbərliyi adından hər veterana pul mükafatı verildi. Mərasim iştirakçıları sonda birlikdə şəkil çəkdirdilər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

## Xəzər Donanması müharibə illərində

Böyük Vətən müharibəsi illərində Qələbənin əldə edilməsində Azərbaycanın böyük rolu olub. Bakı nefti olmasaydı, çox çətinliklə qələbəni əldə etmək olardı. Ona görə də Hitlerin əsas məqsədi Qafqazı ələ keçirmək idi, əsasən də Bakını. 1942-1943-cü illərdə faşist ordusu bütün gücünü Xəzər dənizi ətrafındakı ərazilərə yönəltmişdi. Böyük Vətən müharibəsinin ilk günlərindən Xəzər Donanmasının şəxsi heyəti düşmənə qarşı vuruşmağa tam hazır vəziyyətdə idi. Dəniz piyadaları briqadası formalaşmaqda idı. Müharibə başlanan gündən Xəzər Donanması Zaqafqaziya Hərbi Dairəsinin sərəncamına keçdi. Donanmanın qarşısına dəniz sularına düşmənin dənizçi desantlarının atılmasına yol verməmək, xalq təsərrüfatı və hərbi yüklərin təhlükəsiz daşınmasını müşayiət etmək, şəhərin hava hücumundan müdafiə qüvvələri ilə birlikdə dəniz sahillərinin və Bakı limanına yaxın rayonların müdafiəsini təmin etmək kimi tapşırıqlar qoyuldu.

Xəzərdə formalaşan dəniz piyadaları Şimali Qafqazda, Tamanda, Krımda və başqa rayonlarda hitlerçilərə qarşı vuruşublar. Qafqaz uğrunda gedən döyüşlərdə Xəzər Donanmasının şəxsi heyətinin də uğurları az olmayıb. Komandanlığın tapşırığı ilə piyadalar həmin ərazilərdə kəşfiyyat aparıblar.

Qafqaz uğrunda gedən döyüşlərdə müxtəlif millətlərin nümayəndələri iştirak ediblər. Düşmənə qarşı döyüşlərdə fərqlənən dəniz piyadaları bölməsinin rabitəçisi həmyerlimiz Qafur Məmmədov da var idi. 1942-ci il oktyabrın 12-də o, qızğın döyüşlər zamanı öz komandirinin həyatını xilas edərək şəxsi fədakarlıq göstərib. Buna görə də o, ölümündən sonra ən yüksək ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Xəzər Donanmasının ən çətin dövrü 1942-ci ildə olub. Düşmənlər Orconikidze şəhərini ələ keçirməyə çox can atırdılar. Məqsədləri Gürcüstan yolunu bağlamaq, Qroznı, Bakı və Tiflis şəhərlərini ələ keçirmək idi. Düşmən qüvvələri Orconikidze şəhərinə doğru irəliləyirdilər. 34-cü atıcı diviziyanın dəniz piyadaları batalyonunun döyüşçüləri məhvedici atəşlə düşmənin qarşısını ala bilib. Bu briqada Bakıda formalaşdırılıb, heyəti hərbi dənizçilərdən ibarət idi ki, onlar da Ali Hərbi Dənizçilər Məktəbinin kursantları və Xəzər Donanmasının şəxsi heyətindən təşkil edilib.

Dənizçilərimiz 19 gün düşmən qarşısında möhkəm dayanmışdılar. Onlar düşmən qüvvələrinin dənizdə qarşısını almaq üçün igidliklə vuruşurdular. Müharibənin ilk dövründən Xəzər Donanmasının gəmiləri ilə çoxlu sayda canlı qüvvə və hərbi texnika daşınıb. Donanmanın daha vacib tapşırıqlarından biri də keyfiyyətli Bakı neftinin cəbhəyə çatdırılması olub. Müharibənin qızğın dövründə donanmanın gəmiləri bu vacib tapşırığın öhdəsindən bacarıqla gəlib.

1943-cü ildə isə donanmanın əsas tapşırıqlarından biri dəniz əlaqəsinin təmin edilməsi idi. Faşistlər hava ərazisindən Xəzər dənizinin şimal hissəsində yerləşən dəniz kommunikasiya xətlərinə güclü zərbələr endirirdilər. Bu məqsədlə 1943-cü ilin martında Xəzər Dəniz Donanmasının qarşısında Həştərxan dəniz yolunun müdafiəsi tapşırığı qoyuldu. Bu strateji dəniz yolunu düşmənin aviasiya zərbələrindən qorumaq üçün donanmanın hərbi hissə və birləşmələri öz borclarını layiqincə yerinə yetiriblər.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**



## Hitlerin neft Bakısını işğal planı

Böyük Vətən müharibəsində Qələbənin qazanılmasından 70 il ötməsinə baxmayaraq, bu qanlı müharibənin izləri hələ də yaddaşlardadır. Bu günlərdə Hərb Tarixi Muzeyi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi ilə birgə "Azərbaycan Böyük Vətən müharibəsində" mövzusunda tədbir keçirib.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş şəhidlərimizin, Böyük Vətən müharibəsi cəbhələrində həlak olan həmvətənlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan məktəbin rəisi I dərəcəli kapitan Əlimərdan Quliyev dünyaya sahiblənmək istəyən Adolf Hitlerin işğalçılıq siyasətində önəmli yer tutan Qafqaz planından danışıb.

- Hitlerin "Ost" planında Bakının işğal edilməsi diqqət mərkəzində dayanırdı. Qafqazı ələ keçirtmək məqsədilə faşist ordusunun qərargahı "Edelveys" adlı xüsusi plan hazırlamışdı. "Ost" işğal planının müəllifi Rozenberqin başçılığı ilə yaradılan Şərq işləri üzrə nazirliyin nəzdində Qafqaz komissarlığı da var idi, - deyə o, çıxışında tarixi Qələbənin qazanılmasında Azərbaycan xalqının rolundan ətraflı bəhs edib.

Tədbirdə çıxış edən muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə qeyd edib ki, müharibənin ilk günlərində minlərlə azərbaycanlı könüllü olaraq cəbhəyə yola düşüb. "1941-ci ilin sonunda xalq qoşunu dəstələrində artıq 187 min azərbaycanlı döyüşçü vardı. Bunların da 30 mindən çoxu qadınlar olmuşdu. Xalqımızın müharibədə iştirakını və tarixi Qələbənin qazanılmasında rolunu araşdırmaq, təbliğ etmək mühüm siyasi və elmi əhəmiyyətə malikdir".

Sonra muzeyin digər əməkdaşlarının çıxışları dinlənilib. Tədbirdə Ali Hərbi Dənizçilik Məktəbinin zabit, müəllim, kursant heyəti, şəhər muzeylərinin nümayəndələri, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin və onun komandiri olmuş Cavad Həkimlinin ailə üzvləri, Böyük Vətən müharibəsi veteranlarından Nuşirəvan Babayev, Səlim Ağayev, Nazim Ramazanov və digər qonaqlar iştirak ediblər.

Axırda "İkinci Dünya müharibəsi və Azərbaycan" adlı sənədli film nümayiş etdirilib.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



## Hərbi Liseydə "9 May - Qələbə Günü" qeyd edilib

Mayın 5-də C.Naxçıvanski adına Hərbi Liseydə tədbir keçirilib. Hərbi Liseyin klubunda təşkil olunan mərasimdə Böyük Vətən müharibəsi və Qarabağ müharibəsi veteranları, Nizami rayonu ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri məktəb rəisinin müavini polkovnik Rəhim Səmədov açaraq qeyd edib ki, Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin qazanılmasında xalqımızın xüsusi rolu olub. Belə ki, müharibə zamanı yüz minlərlə azərbaycanlı ön cəbhədə döyüşərək misilsiz qəhrəmanlıqlar göstərib. Arxa cəbhədə insanlarımız fədakarlıqla "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün!" devizi ilə çalışıblar. Müharibədə hər beş təyyarədən və tankdan dördü Bakı neftçilərinin hasil etdiyi yanacaqla işləyib. Ümumiyyətlə, faşizm üzərində Qələbənin təmin olunmasında Azərbaycanın müstəsna xidmətləri olub.

Kursantlara Böyük Vətən müharibəsinə həsr olunmuş qısa metrajlı flim nümayiş olunub. Sovet İttifaqı Qəhrəmanlarından Həzi Aslanov, Ziya Bünyadov, Mehdi Hüseynzadə və başqalarının döyüş yolundan bəhs edilib.

Tədbirdə çıxış edən Böyük Vətən müharibəsi veteranı Hüsü Həsənov keçdiyi döyüş yolundan danışaraq gələcəyin zabitlərinə hərb elminə dərindən yiyələnməyi, Vətənin cəsur müdafiəçiləri olmağı tövsiyə edib.

Sonra Nizami rayon Qarabağ Müharibəsi və Silahlı Qüvvələr Veteranları İctimai Birliyinin sədri Yəhya Ağayev çıxış edib və erməni işğalı altında olan torpaqlarımızın tezliklə azad olunmasını, bu yolda hər bir azərbaycanlının Ali Baş Komandanın əmrinə hər zaman hazır olduğunu bildirib.

Tədbirdə C.Naxçıvanski adına Hərbi Liseyin kursantlarının və Nizami rayonundakı uşaq yaradıcılıq mərkəzi kollektivinin rəqsləri, vətənpərvərlik mövzusunda ifaları dinlənilib.

Sonda Hərbi Liseyin rəisi general-mayor Mirzə Almasov müharibə veteranlarına qiymətli hədiyyələr təqdim edib.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Dahi rəhbər ehtiramla anılıb



Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü Hərbi Dəniz Qüvvələrində də böyük ehtiramla qeyd edildi.

Əvvəlcə ümummilli liderimizin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

2-ci dərəcəli kapitan Hafiz Həsənov tədbirin ən böyük azərbaycanlı kimi tanıdığımız, böyüklüyünü, dahiliyini tərəddüdsüz qəbul etdiyimiz Heydər Əliyevə həsr edildiyini qeyd edərək sözü 1-ci dərəcəli kapitan Şahin Məmmədova verdi. Natiq Heydər Əliyevin şərəfli ömür yolundan danışaraq qeyd etdi ki, bu dahi insan həmişə "Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir, Azərbaycan mənim həyatımdır" amalı ilə yaşayıb və fəaliyyət göstərib. "Azərbaycan KP MK-nın birinci katibi olanda da, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ali bir vəzifədə işləyəndə də, müstəqil Azərbaycan Respublikasının Prezidenti olanda da...".




H.Aslanov adına Mərkəzi Zabitlər Evinin işçisi Gülxar Məmmədova çıxışında dahi rəhbərlə bağlı bir xatirəsini danışaraq qeyd etdi ki, böyük öndər olduqca dərin mənəvi keyfiyyətlərə, nəhayətsiz təfəkkürə malik idi. "1993-cü ildə ondan müsahibə alanda buna bir daha əmin oldum".

Tədbirdə dahi rəhbərin ömür yolundan və tarixi xidmətlərindən bəhs edən "Heydər Əliyev - dahi şəxsiyyət" sənədli filmi nümayiş etdirildi.

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistləri Elçin Məmmədov və Leyla Vahidqızı vətənpərvərlik mahnılarını ifa etdilər.

**"Azərbaycan Ordusu"**

# Əsgərlər Göygöl rayonunda Heydər Əliyev Mərkəzini ziyarət ediblər



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ərəfəsində "N" hərbi hissəsinin əsgərləri rayon mərkəzinə gələrək burada Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Polkovnik-leytenant Natiq Əhədovun əməkdaşımıza verdiyi məlumata görə, Göygöl rayon ictimaiyyətinin nümayəndələri, xüsusən də icra başçısının humanitar məsələlər üzrə müavini Kəmalə xanım İbrahimova və rayon mədəniyyət və turizm şöbəsinin müdiri Şərqiyyə Hümbətova əlamətdar günlərdə və tarixi hadisələr ərəfəsində daim hərbi hissənin rəhbərliyi ilə əlaqə saxlayır, əsgər və zabitlərin tədbirlərdə fəal iştirakına dəstək verirlər.

Bu günlərdə yenə də bir qrup hərbi qulluqçu Heydər Əliyev Mərkəzinə gələrək burada ulu öndərin mənalı ömür yolunu və tarixi fəaliyyətini əks etdirən maraqlı eksponatlarla tanış olub. Muzeyin əməkdaşı Sevinc Atakişiyeva dahi rəhbərin müxtəlif tarixi dövrlərdə Azərbaycana rəhbərliyi zamanı ölkəmizin inkişafı naminə misilsiz xidmətləri barədə əsgərləri ətraflı məlumatlandırıb.

Sonda əsgərlər ümummilli liderin həyat və fəaliyyətini əks etdirən sənədli filmə tamaşa ediblər.

**"Azərbaycan Ordusu"**

# Əbədi yaşayacaq

"N" hərbi hissəsində xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və faşizm üzərində Qələbənin 70 illiyinə həsr olunmuş təntənəli mərasim keçirildi. Öncə ulu öndərin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Şəxsi heyət Dövlət himnini oxudu.

Polkovnik-leytenant Firdovsi Məmmədov ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışdı. Bildirdi ki, ulu öndər xalqımız, Vətənimiz qarşısında misilsiz xidmətlər göstərməklə müstəqil ölkəmizi dünya miqyasında tanıdıb. "Ölkəmiz onun yeritdiyi müdrik daxili və xarici siyasət sayəsində yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə böyük uğurlara imza atmışdır. Müstəqilliyin və dövlətçiliyin dayağı sayılan Silahlı Qüvvələrimizin yaranması və formalaşması onun böyük xidmətlərindən biridir. Bu gün dahi şəxsiyyətin quruculuq siyasəti onun layiqli varisi, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərliyinin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimiz inkişaf edərək müasir dövrün tələbləri səviyyəsində qurulmuş, regionun ən güclü, qüdrətli ordusuna çevrilmişdir. Ulu öndərimiz üç dəfə hərbi hissəmizdə olmuş, əsgər və zabitlərimizlə görüş keçirmişdir. Bütün hərbi qulluqçularımız Heydər Əliyev ideyalarına sadiq qalaraq işğal altında olan torpaqlarımızın azadlığı uğrunda qətiyyətli mübarizəsini davam etdirəcəkdir", - deyə zabit bildirdi.

Respublikanın əməkdar artisti Azərin böyük öndərin ölkəmizdə elmə, mədəniyyətə, incəsənətə, sənət adamlarına göstərdiyi böyük qayğıdan, diqqətdən söhbət açdı. Bildirdi ki, bu missiyanı onun layiqli varisi, hamımızın sevimlisi, respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev fədakarlıqla davam etdirir.

Əməkdar artist İlqar Muradov da ürək sözlərini söylədi. Ulu öndərin hər zaman bizimlə olduğunu, onun ideyalarının, əməllərinin davam etdiyini diqqətə çatdırdı.

Sonra sənətçilər konsert proqramı ilə çıxış etdilər.

**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev - ordumuzun əbədiyaşar Ali Baş Komandanı

***Bu günlərdə Hərb Tarixi Muzeyində ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.***



Tədbir ənənəvi olaraq ümummilli liderimiz Heydər Əliyev və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsilə başlanıb.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan ulu öndərimiz Heydər Əliyevin xalqımızın taleyində müstəsna xidmətlərindən söhbət açıb. O, qeyd edib ki, ölkəmizin hazırki sosial-iqtisadi inkişafı ümummilli liderimizin adı ilə bağlıdır.

"Bu gün ulu öndərimizin parlaq ideyaları yaşayır. Onun siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev orduya, hərbi quruculuğa böyük önəm verərək, ölkəni regionun super güclərindən birinə çevirməyə nail olub", - deyə muzeyin rəisi bildirib.

Sonra tədbir iştirakçıları muzeyin elmi işlər üzrə rəis müavini tarix üzrə fəlsəfə doktoru Hacı Həsənovun "Heydər Əliyevin Sovetlər dövründə hakimiyyətə gəlişinin birinci mərhələsi" adlı məruzəsini dinləyiblər. Məruzəçi ulu öndərimizin fenomen şəxsiyyət olaraq Sovet siyasi sistemində ilk dəfə hakimiyyətə gəlişi ilə xalqımızın milli oyanışına geniş yol açmasından və məhz onun polad qətiyyəti, uzaqgörən siyasəti nəticəsində C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasından ətraflı danışıb.

Muzeyin elmi işçiləri - tarix üzrə fəlsəfə doktoru Zəfər Kərimovun "Azərbaycan dövlətçiliyi və Heydər Əliyev", Sevər Həsənovanın "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda çıxışları da maraqla dinlənilib.

Tədbir əbədiyaşar Ali Baş Komandanın ömür yolundan bəhs edən sənədli filmin nümayişi ilə başa çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Vətənpərvərlik müsabiqəsi davam edir



Xəbər verdiyimiz kimi, Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümünə həsr olunmuş "Vətən uğrunda" hərbi vətənpərvərlik mahnı müsabiqəsinin II turu ordu birliyinin əsgər klubunda keçirildi. Müsabiqə iştirakçıları qarşısında çıxış edən polkovnik Elşad Əbilov müsabiqənin keçirilməsi haqqında məlumat verərək bildirdi ki, əsas məqsəd orduda xidmət edən gənclərin incəsənət sahəsində istedad və qabiliyyətlərini üzə çıxarmaq, yeniyetmə və gənclərin ordu haqqında bilik və təsəvvürlərini artırmaq, vətənpərvərlik ruhunu gücləndirməkdir.

Gənclər və məktəblilər hərbi hissədə sərgilərlə tanış oldular. Onlara müxtəlif silahlar, rabitə vasitələri, səyyar təbliğat-təşviqat vasitələri haqqında ətraflı məlumat verildi.

Müsabiqə iştirakçıları əsgər klubuna dəvət olundular. Münsiflər heyətinin sədri, əməkdar artist Azərin çıxış edərək bildirdi ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması və gələcəyin fəal quruculları kimi formalaşması üçün ölkəmizdə geniş tədbirlər həyata keçirilir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan gəncliyi bütün sahələrdə əməli fəaliyyət göstərir. Beynəlxalq yarışlarda, festivallarda ölkəmizi ləyaqətlə təmsil edən gənclər respublikamızı dünyanın hər yerində tanıdırlar. Vətənpərvər gənclər Vətənimizin keşiyində ayıq-sayıq dayanırlar. Bir daha qürurla demək istəyirəm ki, bizi qələbəyə apara biləcək qüdrətli ordumuz var.

Əməkdar artist İlqar Muradov da bildirdi ki, hərbi qulluqçular Vətəni qorumaqla yanaşı, onun tarixini, incəsənətini, musiqisini dərindən öyrənməlidirlər. "Ulu babalarımız bir əlində saz, bir əlində qılınc düşmən üzərinə gediblər. Biz də öz tariximizlə, incəsənətimizlə, zəngin musiqimizlə öyünməliyik".

Sonra meydan müsabiqə iştirakçılarına verildi. Onlar növbə ilə Vətənimizi tərənnüm edən mahnılar oxudular. Münsiflər heyəti tərəfindən hərbi qulluqçular Fərid Ağəliyevin və Sabir Hüseynovun ifaları yüksək balla qiymətləndirildi. Sənan Musazadənin, Ramal Balacanovun, Cavanşir Bayramovun, Şəhriyar Əsgərzadənin, Yusif Məmmədovun, Sərxan Qasımovun çıxışları da rəğbətlə qarşılandı və finalda iştirak etmək hüququ qazandılar.

Müsabiqənin növbəti mərhələsi Gəncə şəhərində keçiriləcəkdir.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Qalibləri təbrik edirik



***"İdman cəmiyyət üçün ən vacib sahədir. İdmanla məşğul olan hər bir insan, hətta adi bədən tərbiyəsi ilə məşğul olan hər kəs tamam sağlam olur. Sağlam olmaq üçün həkimə müraciət etmək, dava-dərman qəbul etmək, iynə vurdurmaq lazım deyildir. Sadəcə, hər gün idmanla məşğul olun. Mən bir dəfə demişəm, yenə deyirəm: mən gənc vaxtlarımdan idmanı sevmişəm, idmanla məşğul olmuşam, bu gün də məşğul oluram. Ona görə də görürsünüz, sizin qabağınızda belə dayanmışam. Ona görə hamınızı idmanla məşğul olmağa dəvət edirəm. Özü də burada gənclərin öz yeri, orta nəslin, yaşlı nəslin də öz yeri var".***

Ulu öndər Heydər Əliyevin söylədiyi bu ifadə idmanın nə dərəcədə əhəmiyyətli sahə olduğunu sübuta yetirir. Hər bir sahədə olduğu kimi, ordu sıralarında da mütəşəkkil idman tədbirləri baş tutur. Döyüş hazırlığı planına əsasən, "N" hərbi hissəsində futbol üzrə yarışlar keçirilib. Mayın 7-də yarışın qaliblərinin mükafatlandırma mərasimi olub. Mərasimi giriş sözü ilə polkovnik İlqar Lətifov açaraq bildirib ki, son illər respublikamızda idmana böyük əhəmiyyət verilir. "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, ilk Avropa Oyunları ölkəmizdə keçiriləcək. Oyunlar Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən keçirilir. Belə mötəbər yarışın ölkəmizdə keçirilməsi gənclərimizin idmana həvəsini daha da artırır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüş hazırlığı ilə yanaşı, fiziki hazırlığa da yüksək önəm verir. Bunun nəticəsi olaraq müxtəlif sahələrdə yarışlar keçirilir, hərbi qulluqçularımız güclərini sınayırlar",



- deyə polkovnik vurğulayıb.

Fürsətdən istifadə edib komanda üzvləri ilə həmsöhbət oluram. Baş leytenant Tural Həsənov yarışlarda iştirak etməkdən qürur duyduğunu bildirərək deyir:

- Bu dəfə ikinci yerə nail olsaq da, gələn yarışlarda qələbə qazanacağımıza və kuboku hərbi hisssəmizə aparacağımıza inamlıyıq. Qalib həmkarlarımı da təbrik edirəm, əsl oyun nümayiş etdirib birincilik əldə etdilər.

Birinci yerdə qərarlaşan komandanın rəhbəri kapitan Rəşad Kazımov isə sevincinin hədsiz olduğunu bildirdi. "Hər bir komanda yaxşı oyun göstərdi. Bizim komanda isə daha əzmli və inamlı idi. İnşallah uğurlarımız davamlı olar. Komanda üzvlərinin hər birinin əziyyəti böyükdür. Qapıçı əsgər Tacəddin Əsgərovun adını isə xüsusi qeyd etmək lazımdır. Dəfələrlə qapımızı qoldan xilas etdi. Qələbəmizdə rolu olan hər bir komanda üzvünə - Anar Çıraqlı, Fəxri Sultanov, Elşad Musayev, Eldəniz Hüseynov, Elçin Həmidov, Rahib Əkbərli, Kamandar Sabirli, Zamiq Quliyev, Mətin Ayvazlı, Paşa Hüseynov və başqalarına təşəkkür edirəm", - deyə kapitan sevincini bizimlə bölüşdü.

Mərasimin sonunda birinci yerə sahib olan komandaya kubok, ikinci və üçüncü yerin sahiblərinə isə diplom və fəxri fərmanlar verildi.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# "Ən yaxşı top heyətlərinin müsabiqəsi" sona çatıb

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına müvafiq olaraq, bu yaxınlarda general Əlağa Şıxlinskinin 150 illik yubileyi ilə əlaqədar "Ən yaxşı top heyətlərinin müsabiqəsi" keçirilib.***

Müsabiqəyə Silahlı Qüvvələrin artilleriya təyinatlı hərbi hissələrindən nümunəvi top heyətləri cəlb olunmuşdu.

Yarışda top heyətlərinin döyüşə hazırlığının vəziyyəti, şəxsi heyətin ixtisas hazırlığından nəzəri bilik səviyyələri və praktik vərdişləri yoxlanılıb.



Artilleriya nəzəriyyəsindəki kəşfləri ilə dünyada şöhrət qazanmış general Əlağa Şıxlinskinin 150 illik yubileyinə həsr olunan "Ən yaxşı top heyətlərinin müsabiqəsi"nin nəticələri müəyyənləşdikdən sonra qaliblər elan olunub. Birinci yeri top komandiri Ceyhun Abbasov, ikinci yeri top komandiri Nazim Kərimov, üçüncü yeri isə top komandiri Anar Kərimov olan heyətlər qazanıblar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***8 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 65 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Çinari və Mosesqex kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Koxanəbi və Ağdam kəndlərində, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərindən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Şuraabad, Cəvahirli, Kəngərli, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 444
Nüsxə 4600